


# Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı

**2009-cu ildən keçirilən Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalına dünyanın müxtəlif ölkələrindən də musiqiçilər gəlirlər və həmin musiqiçilər də bizim ölkənin ifaçıları ilə bir səhnəni bölüşərək onlar Üzeyir bəyin və dünya klassiklərinin əsərlərini ifa edirlər.**

Üzeyir bəyin əbədiyaşar ömrü yalnız bu faktlarda deyil, demək olar ki, bir çox tarixi əhəmiyyət daşıyan sənət nümunələrində öz əksini tapır. Buna misal olaraq biz Üzeyir bəyə həsr olunan Beynəlxalq Musiqi festivalını da qeyd edə bilərik. 2009-cu ildən keçirilən bu festivala dünyanın müxtəlif ölkələrindən də musiqiçilər gəlirlər və həmin musiqiçilər də bizim ölkənin ifaçıları ilə bir səhnəni bölüşərək onlar Üzeyir bəyin və dünya klassiklərinin əsərlərini ifa edirlər. Festival çərçivəsində ölkənin bir neçə şəhərində tədbirlər keçirilsə də, əsas tədbirlər Bakı şəhərində baş tutur. Festival zamanı konsertlərlə yanaşı Üzeyir Hacıbəylinin əsərləri əsasında teatr tamaşaları, dahi bəstəkarın yaradıcılıq irsini araşdıran elmi konfranslar da keçirilir. Festivalın təşkilatçıları Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondudur. Bu mötəbər Festivalın əsas mənbəyi də məhz Üzeyir Hacıbəyli irsi, Üzeyir Hacıbəylinin ölməz musiqisi və əbədiyaşar irsidir. Bu irs hətta 2008-ci ildə nəşr olunan "Üzeyir ensiklopediyası"nda da geniş şəkildə öz əksini tapır. Əminik ki, Üzeyir Hacıbəylinin irsi daha neçə-neçə nəsillər tərəfindən öyrəniləcək, çünki bu irs Azərbaycan musiqi mədəniyyətinin tarixi və silinməz səhifələridir.